# Uğur olsun, Əlirza müəllim!



Bu günlərdə Cəbrayıl RİHB-nın Bakı şəhər qərərgahında rayon Ağsaqqallar Şurasının yeni sədr müavininin təqdimat yığıncağı keçirilmişdir.

Yığlncağın əvvəlində Ulu öndərimiz Heydər Əliyevin, Tehran şəhərində dövlətçilik naminə terrorun qurbanı olmuş Orxan Əsgərovun, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.

Yığıncağı giriş sözü ilə açan YAP Cəbrayıl rayon təşkilatının sədri cənab Arif Fərzəliyev dünyada və ölkəmizdə baş verən son hadisələrdən bəhs etdi. Tehranda səfirliyimizə qarşı törədilmiş terror hadisəsini qəti şəkildə qınayan Arif müəllim dövlətçiliyimiz naminə şəhid olmuş Baş Leytenant



Orxan Əsgərova allahdan rəhmət, yaralananlara şəfa dilədi.

A.Fərzəliyev 44 günlük müharibədə qazanılmış böyük qələbəmizin qorunub saxlanması üçün möhkəm Dövlət-xalq birliyinin vacibliyini vurğuladı. O, Ölkə başçısının müvafiq sərəncamı ilə 2023-cü ilin ümummilli liderimiz H.Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar olaraq ölkəmizdə ,,Heydər Əliyev ili" elan olunmasından söz açdı. Bütün ömrü boyu azərbaycanlı olması ilə fəxr edən, görkəmli dövlət xadimi H.Əliyev siyasətinin ölkə başçımız cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini vurğuladı.

İşğaldan azad olunmuş yaşayış məntəqələrimizdə o cümlədən Cəbrayıl rayonunda aparılan bərpa-quruculuq işlərindən söz açan natiq, böyük qayıdışın astanasında olduğumuzu və qayıdış mərhələsində Cəbrayıl mentalitetini hələ o yerləri görməyən, pərakəndə şəkildə yaşamış gənc nəslimizə aşılanmasının vacibliyini diqqətə çatdırdı. Bu missiyada rayon ağsaqqallarının üzərinə düşəcək yükün ağırlığını önə çəkdi: - Təbii ki, belə bir məsuliyyətli mərhələdə cəmiyyət tərəfindən qəbul edilən, ədalətli, nurlu, ziyalı ağsaqqallarımıza güvənirik. Bu günki yığıncağımız da rayon Ağsaqqallar Şurasının sədrinin müavini vəzifəsinə seçilmiş tanınmış ziyalımız Əzizli Əlirza Zal oğlunun (ədəbi təxəllüsü Əli Rza Xələfli) təqdimatı ilə bağlıdır.

Arif müəllim Əlirza müəllimin yaradıcılığından, onun müəllifi olduğu çoxsaylı əsərlərdən, iştirakçısı olduqları görüş və tədbirlərdən söz açdı və ona yeni vəzifəsində uğurlar arzuladı.

Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov da İrandakı səfirliyimizə qarşı törədilən terror hadisəsini qətiyyətlə pislədi. Daha sonra o, Əli Rza Xələflinin dünənindən, bu günündən, I Qarabağ müharibəsində iştirakçısı olduqları döyüş səhnələrindən



söhbət açdı, böyük qələm sahibinin yaradıcılıq kredosuna səyahət etdi. Əlirza müəllimin şuranın rəhbərləri sırasına seçilməsini rayonumuzun ictimai həyatında önəmli hadisə olduğunu vurğulayan Vaqif müəllim onunla eyni amal naminə çalışacağından yana məmnunluq hissi keçirdiyini bildirdi.

RİHB aparatının baş məsləhətçisi Əbil Vəliyev çıxış edərək Cəbrayıl rayonunda qorunub saxlanılan yerli mental dəyərlərdən söz açdı. Əlirza müəllimi yaxından tanıdığını və onun böyük ictimai vəzifənin öhdəsindən layiqincə gələcəyinə əminliyini bildirdi.



Yığıncaqda geniş şəkildə çıxış edən Əlirza Əzizli bildirdi ki İİR-də səfirliyimizə olunan terror hücumu bütövlükdə dövlətimizə olunan hücumdur. Belə bir məqamda hamımız bir nəfər kimi Dövlətimizin yanında olmalıyıq.

Əli Rza Xəlıfli ona göstərilən etimada görə rayon İcra hakimiyyətinin başçısı cənab Kamal Həsənov başda olmaqla hər bir kəsə təşəkkürünü bildirdi. Cəbrayıl mentalıtetinin dərin



köklərindən, bu dəyərləri yaşatmış el ağsaqqallarından, bütün yaradıcılığında milli dəyərləri təbliğindən söz açan Əlirza müəllim ona həvalə olunan vəzifənin məsuliyyətini tam anlamı ilə dərk etdiyini bildirdi.

Yığıncaqda iştirak edən ərazi nümayəndələri, YAP fəalları Əsəd Əsədov, Məlahət Əzizova, Əliyar Fərzəliyev və başqaları Əlirza Əzizlinin ən layiqli seçim olduğunu vurğulayaraq ona fəaliyyətində uğurlar arzuladılar.



***Bəxtiyar ƏSƏDOV,***
***publisist***